# ABBAS ZAMANOV: ZƏMANƏSİ, İRADƏSİ, İRSİ VƏ SƏSİ

*(Əvvəli 8-ci səhifədə)*

*Bu məktubu imzalayarkən şair Nəbi Xəzri muzeyə gəldi və ondan Sizə salam yetirməyi rica etdi. Bakı, 21.IV.1971, A.Z.»*

Eyni qayğıkeş və məsuliyyətli münasibəti Ərzurum Atatürk Universitetinin müəllimi Yavuz Akpınarın böyük ustad kimi qəbul etdiyi, gerçək bir səmimiyyətlə «Abbas əmi» adlandırdığı Abbas Zamanova məktublarından da duymaq olur. Aydın görünür ki, digər ölkələrə yazdığı məktublarında olduğu kimi, Yavuz Akpınarla yazışmalarında da Abbas Zamanov təkcə kitab mübadiləsini tənzimləməklə kifayətlənməmiş, Azərbaycan elmi, ədəbi-mədəni mühitindən xəbərləri Türkiyə ictimaiyyətinə çatdırmış, ölkədən alınan kitabları və ədəbiyyat məlumatlarını, Ərzurum vasitəsi ilə əldə etdiyi Cənubi Azərbaycan materiallarını Bakıda yaymışdır. Yavuz Akpınarın 2 mart 1979-cu ildə Türkiyədən Abbas Zamanova göndərdiyi aşağıdakı məktub bütün bunlara şahidlik edir:

*«Mühterem Efendim,*

*Selam və sağlık dileklerimle...*

*Bu gün bir mektubunuzu və bir bağlama kitabı aldım. Daha önce de «Emel Dostları»nı almıştık. Ahmet Aliye kitabınızı verdim. Çok teşekkürler. Bu kitap dolayisiyle sizi yürekten tebrik ederim. İçerisinde çok kiymetli yazılarınız vardır. Bir çok bazı yazılarınızı Türkiyede yayınlatmayı düşünüyorum.*

*Benim için imzaladığınız kitap, kötü bir talih eseri olarak baskı hatalariyle doludur. Kitabın bir çok sahifesi ne yazık ki, boştur. Bu bakımdan kitabınızdan bir adet daha göndermenizi istirham ediyorum.*

*Emsali-Türkanın («Erzurum ili Ağızları» adlı üç ciltlik eserin içinde) sadece birinci sahifelerini göndermiştim. Buradakı farsca mukaddemeden anlaşıldığına göre Hüseyn Kulu Han Qacar neslindendir. Bu Hanın Türkmenlerle bir vuruşma anında öldürüldüyünü öyrendim. Emsali-Türkanı tertip ettiren acaba bu Hanmıdır? Bilmiyorum. Bu hüsusu ve eseri tertip eden Abbas Kulu Merağayıyı araştırıyorum. Kimliği hakkında şimdiye kadar bir şey öyrenemedim.*

*Eserin bulmuş olduğum her iki nüshasını karşılaştırarak neşre hazırlayorum. İçerisinde iki binden fazla darbi-mesel vardır. İşimi bitirince elyazma nüshalarının fotosuretini elbetteki gönderirim.*

*Bu arada size Türk Edebiyatı Ansiklopedisinin 3. cildini de gönderdim. Bunu ve daha önce gönderdiyimi bildirdiğim kitapları aldınızmı? Size ailemizin fotoqrafını da gönderiyorum.*

*Sehendin ölüm haberine bir türlü inanamadım. Onun Şehriyara hitaben yazmış olduğu menzum mektubu ben Türkiyede neşr etdirmiştim. Kimliği hakkında hiç bir melumatım yoktur. Eger bir az melumat göndere bilirseniz, Türkiyede hakkında bir makale neşr ettirmek istiyorum. Bu haber bize çok acı geldi. Kıymetli bir şair, vatansever kimse idi. Ruhu şad olsun!*

*Konak olarak gelmeyinizi büyük bir sabirsizlikle bekliyorum. Bu işin muamileleri hangi mertebededir?*

*Ahmet Ali bu yılın 7. ayının ortalarında Mecit Beyle beraber Moskovaya gelecekler. Ahmet Ali Bakuya da gelmek istiyor.*

*Benim gelmek için yaptığım müracaata henüz cevap verilmedi. Aslında bu iş olmasa da, ben istediyim zaman gele bilirim. Şimdi sizlerin gelmenizi bekliyorum».*

Vaxtilə indi görkəmli ədəbiyyatşünas olan Yavuz Akpınarın əsasını qoyduğu «Abbas Zamanov kitabxanası»nın kataloqu hazırlanıb kitab halında nəşr edilmiş, xüsusi sayt vasitəsilə bu kitabxana vitrual aləmə təqdim olunmuşdur.

Az qala hər həftə professor Abbas Zamanovun dünyanın müxtəlif ünvanlarına yola saldığı məktublar və bağlamalar, barat və qəzetlər ayrıca bir poçt idarəsinin yükünə bərabərdir. "Abbas Zamanov poçtu" Azərbaycanın Şərqlə Qərb arasında ən etibarlı elm və mədəniyyət körpüsü olmuşdur. İren Məlikova (Fransa), Turxan Gəncəyi (İngiltərə), Əhməd Şmide (Almaniya), Əhməd Cəfəroğlu, Yavuz Akpınar (Türkiyə), Əbdüllətif Bəndəroğlu, Əta Tərzibaşı (İraq), Cavad Heyət (İran) kimi görkəmli ziyalılar həmin "körpü"dən keçərək Azərbaycana gəlmək, çətin şəraitdə ölkəmizlə əlaqə yaratmaq imkanı qazanmışlar. Çoxəsrlik Azərbaycan mədəniyyətinin nailiyyətləri də həmin körpü - Abbas Zamanov körpüsü vasitəsilə dünyaya yayılmışdır. Bəlkə də, bu, yeganə poçtdur ki, dəqiq, müfəssəl ünvan göstərmədən hər hansı məktubu öz sahibinə çatdıra bilmişdir. Dünyanın istənilən nöqtəsindən vətəndaş alimə göndərilən məktubun üzərində sadəcə olaraq aşağıdakıları yazmaq kifayət olmuşdur: Bakı-6. Abbas Zamanov. Görkəmli alimə gələn məktubların üzərinə əgər Bakı-6 A.Z. sözləri yazılsaydı belə, ünvanına çata bilərdi. Bu, professor Abbas Zamanovun beynəlxalq elmi-ədəbi aləmdə nəinki tanındığını, həm də görkəmli azərbaycançı alim səviyyəsində qəbul olunduğunu isbat edir. Aldığı məktublarda onun elmi xidmətləri haqqında yazılanlar, yaxud da yazışmalar vasitəsilə aparılan müzakirələr Abbas Zamanovun dünyanın müxtəlif ölkələrinin elmi dairələrində böyük nüfuz qazandığını nəzərə çarpdırır. Məşhur İraq-türkmən ədəbiyyatşünası Əta Tərzibaşı 27 may 1975-ci ildə Abbas Zamanova yazmışdı ki, «Elmi əsərlər-6»da çıxan məqaləniz xoşuma getdi. Hələ son qismi daha maraqlı idi». İngiltərənin Edinburq universitetinin professoru Turxan Gəncəyi Abbas Zamanova yazdığı məktublarında ona «mənim əziz və möhtərəm müəllimim Abbas Zamanov» deyə müraciət etmişdir. Dünyada məşhur olan türkoloq Əhməd Cəfəroğlu Abbas Zamanovu «əziz, dəyərli məsləkdaşı» səviyyəsində qəbul etmişdir. Azərbaycan-İraq əlaqələrində xüsusi mərhələ yaratmış mərhum Əbdüllətif Bəndəroğlu professor, «hörmətli ustad» deyə üz tutduğu Abbas Zamanova «Bakıdakı bir türkmən təmsilçisi» kimi yüksək qiymət vermişdir. Fransadan Azərbaycana göndərdiyi məktublarında tanınmış şərqşünas İren xanım Melikova «çox möhtərəm» Abbas müəllimin xidmətlərindən faydalandığı üçün ona təşəkkürlərini çatdırmışdır. Professor Abbas Zamanovun yazışmalarında Cənubi Azərbaycan ədəbiyyatı, mühacirətin ədəbi irsi, milli ədəbiyyatın təbliği, tanıdılması ilə bağlı aktual məsələlər müzakirə olunmuşdur. Abbas Zamanov Şərq-Qərb müstəvisində Azərbaycan elminin, ictimai fikrinin, ədəbiyyatı və mədəniyyətinin böyük elçisi vəzifəsini böyük məsuliyyətlə və şərəflə həyata keçirmişdir.



Bəllidir ki, «Yazıçı və müasirləri» problemini bizim ədəbiyyatşünaslıq elminə görkəmli ədəbiyyatşünas alim Abbas Zamanov gətirmişdir. Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Abbas Zamanovun «Sabir və müasirləri» adlı dəyərli monoqrafiyası bu istiqamətdə aparılmış elmi axtarışların uğurlu nəticəsi kimi meydana çıxmış birinci elmi-tədqiqat əsəridir. Həmçinin qeyd olunan qiymətli monoqrafik tədqiqatı tamamlayan «Müasirləri Sabir haqqında» və «Sabir xatirələrdə» kitabları, habelə nəşrində yaxından iştirak etdiyi «Cavidi xatırlarkən» kitabı da Abbas müəllimin gərgin zəhmətinin, böyük axtarışlarının sayəsində elmi dövriyyəyə daxil olmuşdur. Bundan başqa, 1967-ci ildə demək olar ki, professor Abbas Zamanovun təşkilatçılığı və böyük səyləri sayəsində meydana çıxmış «Cəlil Məmmədquluzadə» adlı iri həcmə malik məqalələr və xatirələr kitabı da «yazıçı və müasirləri», yaxud da «müasirləri yazıçı haqqında» formatında tədqiqatlar üçün zəngin mənbə rolunu oynayır. Adları qeyd edilən kitabların ərsəyə gəldiyi vaxtdan keçən yarım əsrə yaxın zaman ərzində bu istiqamətdə təəssüf ki, yalnız bir neçə elmi əsər - «Cəlil Məmmədquluzadə: mühiti və müasirləri», «Cəfər Cabbarlı. Həyatı və mühiti» və başqa monoqrafiyalar meydana çıxmışdır. «Müasirləri sənətkar haqqında» tipli yeni bir kitab isə bu modelin yaradıcısına həsr olunmuşdur. 2003-cü ildə işıq üzü görmüş «Müasirləri Abbas Zamanov haqqında» adlanan həmin kitabla (toplayanı, tərtib edəni və müqəddimənin müəllifi İsa Həbibbəyli) bu model elmi-mədəni mühitdə özünü bir daha təsdiqləmişdir. Beləliklə, ədəbiyyatşünaslıq elminin «yazıçı və müasirləri» və ya «müasirləri yazıçı haqqında» qəbilindən olan əsərlər vasitəsilə ayrı-ayrı sənətkarları epoxası və məsləkdaşları ilə birlikdə geniş, tam və bütöv bir ictimai-ədəbi prosesdə görmək və göstərmək ənənəsi formalaşmışdır. Artıq Abbas Zamanovun sanballı tədqiqatlarının işığında «sənətkar və müasirləri» probleminin əhəmiyyəti və zəruriliyi elmi fikirdə etiraf olunmaqdadır. Abbas Zamanovun elmi irsi, tədqiqatları göstərdi ki, bu istiqamətdə aparılacaq araşdırmalar yazıçıların mühitini, onların dünyagörüşlərinin formalaşma mənbələrini, sənətkarların böyük ideallar uğrunda apardıqları mübarizə zamanı istinad etdikləri şəxsiyyətləri, birgə düşünüb-daşındıqları məsləkdaşlarını, bütün bunların ədəbiyyatın, mədəniyyətin, ictimai fikrin inkişafına təsiri kimi həlli zəruri olan məsələləri öyrənməyə ciddi elmi töhfələr verə bilər. Bundan başqa, sənətkarların elmi tərcümeyi-hallarının yazılmasını da «yazıçı və müasirləri» problemindən kənarda düşünmək heç cür müsbət nəticə verə bilməz. Ona görə də M.F.Axundov, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Rəsul Rza, Mir Cəlal, İlyas Əfəndiyev... «və müasirləri» mövzusu ayrı-ayrı sənətkarların həyatı və yaradıcılığı ilə bərabər, dövrü və mühitini, dünyagörüşünü, onların əhatəsində cərəyan edən ədəbi-ictimai prosesləri doğru-düzgün öyrənməyə münasib şərait yaradır. Fikrimizcə, Abbas Zamanovun tədqiqatlarının əsas üstünlüyü də onun Mirzə Ələkbər Sabiri şəxsən tanıyan, onunla Şamaxıda birgə fəaliyyət göstərən, Bakıda «üns tutan», hətta Balaxanı məktəbində dərs dediyi sinifdə oxuyan insanları müəyyən edib, böyük fədakarlıqla onlardan qiymətli məlumatları, çoxsaylı xatirələri, sənədləri və şəkilləri toplayaraq elmi dövriyyəyə daxil etməsi ilə əlaqədar idi. Bu qəbildən olan ciddi elmi yenilikləri nəzərə alındığı üçündür ki, «Sabir və müasirləri» adlı namizədlik dissertasiyasına görə Abbas Zamanova birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsi verilmişdi.

*(Davamı var)*

***İsa HƏBİBBƏYLİ,***
***Naxçıvan Dövlət Universitetinin rektoru, akademik***